# Azərbaycan Prezidenti İlham Əliyev Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniçi qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniçi qəbul edib.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniç ölkəmizə əvvəlki səfərlərini, Bakıda I Avropa Oyunlarının açılış mərasimində iştirakını və Prezident İlham Əliyev ilə keçirdikləri görüşləri xatırladı. Dördüncü Qlobal Bakı Forumunda iştirakından məmnunluğunu ifadə edən Mladen İvaniç hazırda bütün dünya ölkələrinin tamamilə yeni çağırışlarla üzləşdiyini, tədbirin bu məsələləri müzakirə etmək üçün yaxşı fürsət yaratdığını qeyd etdi.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniç ilə görüşlərini xatırlayan dövlətimizin başçısı bu səfərlərin əməkdaşlığımızın yaxşı göstəricisi olduğunu vurğuladı. Dördüncü Qlobal Bakı Forumunun beynəlxalq əhəmiyyətinin hər il daha da artdığını deyən Prezident İlham Əliyev tədbirin ümumi maraq doğuran bir çox məsələlərin müzakirəsi baxımından önəmini qeyd etdi.

Görüşdə ölkələrimiz arasında bir sıra sahələrdə əməkdaşlığa dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***